**UOT 82.091**

**Ağadadaş DADAŞOV**
***Filologiya üzrə fəlsəfə doktoru***

# NİZAMİ GƏNCƏVİ VƏ ƏMİR XOSROV DƏHLƏVİ YARADICILIĞINDA MƏCNUN SURƏTİ

***Açar sözlər:*** *Nizami Gəncəvi, Əmir Xosrov Dəhləvi, "Leyli və Məcnun", Məcnun obrazı, nəzirə*
***Key words:*** *Nizami Ganjavi, Amir Khosrov Dehlevi, "Leili and Majnun", Majnun image, nazire (imitation)*
***Ключевые слова:*** *Низами Гянджеви, Амир Хосров Дехлеви, «Лейли и Меджнун», образ Меджнуна, подражательное стихотворение*

Dünya ədəbiyyatı xəzinəsini nadir qiymətli incilərlə bəzəyənlərdən biri kimi şöhrət tapan Nizami Gəncəvinin bütün yaradıcılığı, hər şeydən əvvəl isə "Xəmsə"si Şərq aləmində yeni ədəbi məktəb açmış, təkcə şair və yazıçıların deyil, bütün oxucuların qəlbinə yol tapmışdır. Elə buna görə də sonrakı əsrlərdə müxtəlif ölkələrdə və müxtəlif dillərdə yazıb-yaradan görkəmli söz ustaları Nizami dühasının günəşindən isinmiş, ya bu ölməz sənətkarın "Xəmsə"sinə, ya da "Xəmsə"yə daxil olan bəzi poemalara nəzirə yazmağı özlərinə böyük şərəf hesab etmişlər. Görkəmli şairlərin diqqətini cəlb edən və haqqında onlarca nəzirələr yazılan belə poemalardan biri Nizami Gəncəvinin real məhəbbət mövzusunda qələmə aldığı "Leyli və Məcnun" məsnəvisidir.

Ümumiyyətlə, Yaxın və Orta Şərq xalqları ədəbiyyatında Nizami məktəbinin ilk davamçısı kimi yüksək adı daşımaq iftixarı XIII-XIV əsrlərdə Hindistanda yaşayıb-yaradan görkəmli sənətkar Əmir Xosrov Dəhləviyə nəsib olmuşdur. O, farsca yazan birinci şairdir ki, Nizami sənətindən ilham almış, öz ustadının əsərlərinin əsas süjet xəttini və ideya istiqamətini saxlayaraq, eyni mövzularda ikinci "Xəmsə" yaratmışdır.

Bu məqalədə qarşıya qoyulan məqsəd hər iki şairin eyni mövzuda yazdıqları məsnəvilərdəki Məcnun surətinin müqayisəsidir. Məlumdur ki, dünya şərqşünasları, eləcə də görkəmli sovet alimləri, o cümlədən də Azərbaycan alimləri Nizami yaradıcılığını və dünyagörüşünü tədqiq sayəsində diqqətəlayiq xidmətlər göstərmiş, Nizami "Xəmsə"sinə daxil olan məsnəvilər, həmçinin "Leyli və Məcnun" poemasının bədii və elmi təhlili barəsində qiymətli əsərlər yazmışlar. Buna görə də biz bu kiçik məqalədə "Leyli və Məcnun" mövzusunun aktuallığı, onun ədəbiyyat tarixində tutduğu mövqeyi, toxunulan mühüm ictimai və mənəvi problemlərin əhəmiyyəti, obrazlar qalereyasının müxtəlifliyi və zənginliyi, eləcə də Dəhləvinin nə üçün bu mövzuya müraciətinin səbəbləri və s. bu kimi məsələlərdən bəhs açmadan yalnız hər iki şairin əsərlərindəki Məcnun surətinin təhlili ilə kifayətlənirik.

Qabaqcadan qeyd edək ki, Nizami və Dəhləvinin poemalarındakı Məcnun surətinin səciyyəsində, onun məhəbbət faciəsi ilə bağlı olan hadisələr cərəyanının təsvir və izahatında, süjet xəttində bir-birinə müvafiq gələn və gəlməyən səhnələr yaradılmasında, yüksək bəşəri keyfiyyətlərin şərhində və s. cüzi və əsaslı fərqlər hər şeydən əvvəl hər iki şairin dünyabaxışındakı müəyyən müxtəliflikdən, bəzən də sadəcə olaraq Dəhləvinin nəzirə yazsa da, orijinallıq göstərmək meylindən doğur.

Hər iki şairin əsərində dünyaya gələndən sonra Qeys adlanan, lakin sonralar Məcnun adı ilə şöhrət tapan qəhrəman bəni Amiri qəbilə başçısının oğludur. Fərq burasındadır ki, Nizamidə adlı-sanlı və dövlətli bir şəxs kimi oxucuya təqdim edilən bəni Amiri

qəbilə başçısı övladdan məhrumdur, o, yalnız uzun illər etdiyi dua və verdiyi çoxlu nəzir-niyaz nəticəsində, nəhayət, oğul sahibi olur. Dəhləvidə isə poema birdən-birə Qeysin doğulması münasibətilə qəbilə başçısının evində qurulan şənlik məclisinin təsviri ilə başlayır. Bundan əlavə, Nizamidə Qeysin gələcək taleyi haqqında əsərin əvvəlində heç bir şey deyilmir. Dəhləvidə isə münəccimlər elə ilk gündən körpənin gələcəkdə eşqdən dəli olacağını söyləyir və bununla da valideynlərin sevinclə dolu olan ürəklərinə dağ basırlar. Bizə elə gəlir ki, poemanın başlanğıcındakı bu kiçik süjet fərqi hər iki müəllifin yaşadığı ölkələrdəki xalqların şifahi ədəbiyyatının səciyyəsindən doğur, çünki qədim hind əfsanə və dastanlarının çoxunda (məsələn, "Sindbadnamə"də) baş qəhrəmanın taleyi, gələcək xoşbəxt və ya faciəli sərgüzəşti əvvəlcədən bildirilir və sonrakı hadisələr də bunu təsdiq edir. İran, ərəb və Azərbaycan folklor əsərlərində isə övladdan məhrum olan ata əksər halda dua edir, nəzir-niyaz paylayır, həm də dərhal deyil, uzun illər keçdikdən sonra arzusuna çatır. Özünün "Leyli və Məcnun" poemasını xalq arasında geniş yayılan rəvayətlər, bir çox yazılı və şifahi mənbələr əsasında nəzmə çəkən Nizami folklorun bu ənənəsinə sadiq qalmışdır. Dəhləvi üçün isə əsas məxəz Nizaminin məsnəvisi olmuşdur, lakin o da hind şifahi ədəbiyyatının buna müvafiq ənənəsi ruhunda hərəkət etmişdir. Bunu da qeyd edək ki, əsərin baş qəhrəmanının gələcək taleyinin qabaqcadan söylənməsi oxucunun və ya dinləyicinin sonra baş verəcək hadisələrə maraq dərəcəsini istər-istəməz azaldır.

Hər iki şairin əsərində Qeyslə Leyli arasındakı məhəbbət macərası məktəbdə təhsil aldıqları vaxtdan başlayır. Lakin burada da Nizaminin təsviri daha təbiidir, çünki Nizamidə Qeysin eşq sevdası yeniyetmə çağına təsadüf edir. Dəhləvidə isə Qeys beş yaşında məktəbə göndərilir, yeddi yaşından isə onun Leyliyə olan çılğın məhəbbəti qələmə alınır ki, bu da inandırıcı çıxmır.

Hər iki müəllifdə Qeys və Leyli ilk baxışdan bir-birinin gözəlliyinə məftun olur. Onların misilsiz xarici gözəlliyi, hamını heyrətləndirən boy-buxunu və s. hər iki əsərdə yüksək məharət və zəngin bədii boyalarla təsvir edilir. Lakin iki gənc qəlbin hərarətindən doğan bu eşq Nizamidə bir az gec, Dəhləvidə isə bir az tez, əvvəlcə sinif yoldaşlarına, sonra da hər iki qəbilə əhlinə məlum olur. Yaşlı adamlar bu aşkar eşqi lüzumsuz hesab etdikləri üçün gəncləri bir-birindən ayırırlar, bu məcburi ayrılıq isə Qeysin "məcnunluq" mərhələsinin ilk pilləsi olur. Hər iki müəllifin əsərində Qeys bu nagahani hicrana dözə bilmir, küçə və bazarları, Leyli qəbiləsinin məskən saldığı Nəcd dağlarını qəmli mahnılar oxuya-oxuya, göz yaşları axıda-axıda gəzir. Həm böyüklərin, həm də qohum və dostların məsləhət və tövsiyələri istənilən nəticəni vermir. Qeysin dalınca düşən, onun eşq haqqındakı nəğmə və şeirlərini maraqla dinləyən, lakin hərəkət və rəftarına bəraət qazandıra bilməyən kütlə, nəhayət, Qeysi "Məcnun" adlandırır.

Bu cəhət də qeyd edilməlidir ki, hər iki müəllifdə, xüsusilə Nizamidə Qeysin "dəliləşməsi" hadisəsi birdən-birə deyil, tədricən baş verən və getdikcə daha da şiddətlənən bir hadisə kimi qələmə alınır ki, bu da onun təbiilik və reallıq dərəcəsini qüvvətləndirir. Bütün göstərdiyi cəhdlərə baxmayaraq, sevgilisini görə bilməyən, atdığı oxların hamısının daşa dəydiyini hiss edən Qeysin məhəbbəti çoxlarının ümid etdiyi kimi sakitləşmək və sönmək əvəzinə daha da coşur və şiddətlənir. Nizami də, Dəhləvi də açıq qeyd edirlər ki, Qeys bu qaranlıq mühitin ona verdiyi "Məcnun" ləqəbindən xəcalət çəkirmiş, onu tənə kimi qəbul edirmiş. Lakin Leyliyə olan məhəbbəti o qədər güclü və atəşli imiş ki, bu xəcalət və tənələr zərbəsi də onu yolundan döndərə bilməmişdir.

Yuxarıda deyilənlərdən aydın olur ki, Qeysə "Məcnun" ləqəbini müəlliflər deyil, qəbilə əhli verir. Əlbəttə, hər sevən gənci "Məcnun" – dəli adlandırmaq olmaz. Başqasını çılğıncasına sevmək də heç vaxt dəlilik əlaməti hesab edilməmişdir. Bəs onda nə üçün

Qeysə "Məcnun" ləqəbi verilmişdir? Bu sualın cavabını hər iki şair öz dövrlərində hökm sürən qayda-qanunlardan çıxış edərək bəzən eyni baxımdan, bəzən də biri digərindən fərqli şəkildə izah edir. Məsələni daha da aydınlaşdırmaq üçün elmi ədəbiyyatda mövcud olan qiymətli fikirlərə müraciəti zəruri hesab edirik. Görkəmli sovet şərqşünası professor M. Əlizadə böyük Nizaminin "Leyli və Məcnun" əsəri, eləcə də onun baş qəhrəmanlarından Məcnunun əsas səciyyəvi cəhəti haqqında bəhs açaraq yazır:

"Ağır faciə ilə bitən bu əsərdə mənfi surət ayrı-ayrı adamlar deyil, cəmiyyət və bu cəmiyyətdə hakim olan feodal-patriarxal qayda-qanunlardır. Gənclərin sevişməsi məlum olan kimi qaranlıq mühit onların səadəti yoluna keçilməz bir sədd çəkir... Məcnun bu mühitə sığışmır. O, feodal adət və ənənələrini ayaqlayıb keçmək və mühitin fövqündə dayanmaq arzusu ilə yaşayır" (Əlizadə, 1960: 152, 154).

Deməli, əsas məsələ təkcə gənc qəlblərdə alovlanan coşqun məhəbbət deyil, həmin məhəbbət* zəminində zamanın mənfur feodal-patriarxal qayda-qanunlarına, mənfi adət və ənənələrinə, yaramaz əxlaq normalarına meydan oxumaqdır. Qeys ona görə "məcnun"dur ki, İslam dininin mütilik zəncirini qırmış, öz təmiz və saf eşqini aşkara çıxarmaqdan qorxmamış, məhəbbət yolunda hədsiz əzab və işgəncələrə dözmüş, eşqin hər şeyə qalib gələn qüdrətini nümayiş etdirmişdir.

Buna görə də həm Nizamidə, həm də Dəhləvidə Məcnun surəti hər şeydən əvvəl saf və pak məhəbbətin, dönməz vəfadarlıq və sədaqətin klassik rəmzi və nümunəsidir. Nizami öz qəhrəmanının məhz nəcib bəşəri keyfiyyətini yüksək qiymətləndirərək yazır:

Məhəbbət daimi olmasa əgər,
Gəncliyin bir şəhvət oynuna dönər.
Məhəbbət odur ki, odu sönməsin,
İnsan yaşadıqca üzü dönməsin.
Həqiqi məhəbbət bir məhəbbətdir,
İlki də, sonu da əbədiyyətdir.
Məcnun məhəbbətdə yetdi kamala,
Yayıldı şöhrəti bütün mahala. (Nizami, 1983: 95)

Hər iki şairin əsərində Məcnun yalnız ağlayıb-sızlayan, əlini hər şeydən üzən ümidsiz və bədbin surət deyildir. Bu mənada biz görkəmli şərqşünas Y. E. Bertelsin Nizami Məcnununu "qeyri-fəal", Dəhləvi Məcnununu isə "daha qeyri-fəal" (Bertels, 1960: 276) surət adlandırması fikri ilə razılaşmaq istəməzdik. Çünki qeyri-fəallıqla məqsədə nail olmağın qeyri-mümkünlüyü ayrı-ayrı şeylərdir. Əgər Məcnun Leylini görmək, onun camalına baxıb təskinlik üçün hər cüzi imkandan, hətta səba nəsimindən də istifadə etməyə səy göstərirsə, necə onu "qeyri-fəal" adlandırmaq olar? Axı Məcnunun bütün günü Nəcd dağlarında dolaşmasının əsas səbəbi heç olmasa uzaqdan da olsa sevgilisinin camalını görməkdir. Bu mənada Məcnunun fəallığını şərti olaraq kiçik və böyük arzusuna çatmaq uğrundakı fədakarlıq və canfəşanlığında müşahidə etmək olar. Kiçik arzuya, yəni Leylini görmək və onunla söhbət etmək arzusuna nail olmağın əsas obyekti Məcnunun özüdür, lakin bu arzuya çatmağın özü də çox çətindir, çünki Leyli bağlı qapılar arxasında nəzərlərdən gizlədilmiş, xarici mühitlə əlaqədən məhrum edilmişdir. Məcnun kiçik arzusuna nail olmaq üçün bu bağlı qapıları sındırmalı, mühitin din və şəriət qanunları ilə möhkəmləndirilən müəyyən əxlaq normalarını tapdalamalıdır. Bu isə qəhrəmandan möhkəm iradə və cəsarət tələb edir ki, həmin sifətləri də biz Məcnunda görürük. Deməli, Məcnun heç də tam mənada qeyri-fəal deyildir, əksinə, öz arzusuna, xüsusilə kiçik arzusuna çatmaq üçün əlindən gələni edir, hətta "zəncirlənmiş dəli" roluna girib Leylinin ya-

şadığı çadırın qarşısından keçmək məqsədilə qarının dalınca düşüb gedir. Lakin böyük arzu yolu üstündə çəkilmiş səddi qırmaq, yəni Leylinin vüsalına çatmaq və onunla evlənmək mümkünlüyü qətiyyən Məcnunun fəal olub-olmamasından asılı deyildir. Bunun üçün mövcud cəmiyyətdə hökm sürən mənfur qayda-qanunlar aradan qaldırılmalıdır, əxlaq normaları, ictimai və mənəvi həyat dəyişdirilməlidir ki, belə nəhəng işlərin öhdəsindən Məcnun təklikdə gələ bilməzdi. Məhz bu səbəblər üzündən Məcnunu "qeyri-fəal" surət hesab etmək fikri bizdə müəyyən etiraz doğurur. Nəinki Məcnunun özü, ona kömək etmək istəyən başqa qüvvələr də, o cümlədən qəhrəmanın valideyn və qohumları da, dost və yoldaşları da, hətta qüdrətli Nofəl də bu işi həyata keçirmək istərkən özlərinin acizliklərini hiss edirlər. Bu mənada "məcnun" sözünü çoxmənalı söz kimi qəbul etmək lazım gəlir, çünki Məcnun təkcə eşq dəlisi deyildir, təkcə avam kütlənin deyil, hətta ağıllı, lakin cürətdən məhrum adamların nəzərində də "dəli"dir, çünki mənfur cəmiyyət və mövcud mənfi qayda-qanunlar əleyhinə çıxmaq hər kəsdən əsl cürət, qorxmazlıq və mənəvi rəşadət tələb edir ki, bu sifətlər də ancaq "dəli xasiyyətli" şəxslərdə ola bilərdi. Məcnun da belə şəxslərdən idi və bu mənada onun "dəliliyi" dərin fəlsəfi məna və ictimai səciyyə daşıyırdı.

Məcnun surətinin bu yüksək mənəvi keyfiyyətinə həm Nizaminin, həm də Dəhləvinin poemalarında təsadüf edirik. Lakin burada da üstünlük Nizami tərəfindədir. Sanki Nizami əvvəlcədən oxucuların Qeysin "məcnunluq" sifətinə səthi yanaşa biləcəklərini hiss etmiş və buna görə də öz qəhrəmanını adi dəlilərdən fərqləndirməyə çalışmışdır. Şair öz məsnəvisinin bir hissəsində Məcnunun əzəmətindən bəhs edərkən oxucularına müraciətlə:

Məcnunu sərsəri zənn etmə ki sən,
Deyildi gördüyün divanələrdən, (Nizami, 1983: 232) –

deyə sevimli qəhrəmanını "vaxtının ən böyük bir alimi", "aləmi şərh edən Loğman", "gizli mənalara yol açan", "qəlbində göylərin min bir sirri olan" nurlu çıraq adlandırır, eyni zamanda zəmanəsinə bəslədiyi mənfi münasibətini bildirmək üçün nəzmə çəkdiyi eşq macərasından bir bəhanə kimi istifadə etdiyinə, öz diləyini "qılınc kimi qında saxladığına" işarə edərək yazır:

Dünyadan əl üzüb düşmüşdü uzaq,
Leyli bəhanəydi bu yolda ancaq...
Onun da qəlbində yaşardı dilək,
Qında saxlayırdı onu qılınctək. (Nizami, 1983: 232)

Məcnunun "dəlilik" mərəzindən xilas edilməsi üçün göstərilən səylərin nəticəsiz qalması haqqında hər iki şairin əsərində maraqlı səhnələr vardır. Təbiidir ki, Qeysin "məcnunluğu" hamıdan çox ata-ananı narahat edir. Onlar bu məcnunluğun Qeysin Leyliyə olan coşqun məhəbbətindən doğduğunu biləndən sonra məsələni asanlıqla həll edə biləcəklərini güman edir və Leylinin elçiliyinə yollanırlar. Məcnun da valideynlərinin qərarından çox razıdır. O, artıq "dəliliyindən" əl çəkir və səbirsizliklə elçilərin qayıtmasını gözləyir. Lakin Leylinin atasının rədd cavabı həm valideynlərin əl-qolunu sındırır, həm də Məcnunu yenidən dağlara, səhralara salır. Yeri gəlmişkən qeyd edək ki, hər iki müəllifin əsərində Məcnunun "dəliliyinin" azaldığı və çoxaldığını təsvir edən epizodlar vardır ki, onların elə birincisi bu elçiliyə ümiddən doğan sevinc və rədd cavabından yaranan kədərdir. Ümidlərinin doğrulmadığını görən valideynlər Məcnunun yenidən səhralara üz qoyacağını hiss etdikləri üçün nəsihətə əl atırlar. Lakin nə ata-ana məhəbbəti, nə də

verilən hikmətli nəsihətlər Məcnunun dərdinin əlacıdır. Dəhləvidə bu mənada Məcnuna göstərilən təsir əsasən valideynlərin, bəzən də qohum və dostların nəsihət və tövsiyələri, eləcə də tənə və məzəmmətləri ilə məhdudlaşır. Nizamidə isə bu müşkül məsələnin həlli üçün valideynlərin təşəbbüsü daha diqqətəlayiqdir. Bu fikri söyləyərkən biz Nizaminin poemasında Məcnunu "dəlilik" mərəzindən xilas üçün edilən Məkkə ziyarətini nəzərdə tuturuq ki, bu səhnə Dəhləvinin məsnəvisində yoxdur. Məkkə ziyarəti Məcnunun atəşin məhəbbətinin sönməzliyini, eşq yolundakı sədaqət və vəfadarlığının möhkəmliyini göstərən çox maraqlı epizoddur. Ata-ana, eləcə də qohumlar əmindirlər ki, Kəbə ziyarəti onların yeganə övladının ağlını bərpa edəcək, Məcnun da Leylinin məhəbbətini unudacaqdır. Lakin Kəbə zəncirindən yapışan Məcnun atasının dediklərinin tam əksinə olaraq eşqin ondan rəf edilməsi üçün deyil, əksinə, daha da qüdrətləndirilməsi və şiddətləndirilməsi üçün Allaha yalvarıb deyir:

Mənə deyirlər ki, gəl eşqi burax,
Bu, dost məsləhəti deyildir ancaq.
Eşq ilə yaşayır aləmdə səsim,
Eşqsiz aləmdə batar nəfəsim.
Eşqdən yoğrulmuş ruhum, bədənim,
Eşqsiz bir günüm olmasın mənim...
Qoy eşqim ucalıb namidar olsun,
Mən özüm ölsəm də, eşqim var olsun. (Nizami, 1983: 98)

Demək, Nizaminin Məcnunu həm bəşər həyatının, həm də öz ömrünün mənasını ancaq eşqdə görür, eşqsiz yaşamaqdansa ölməyi üstün tutur. Əlbəttə, bu sifəti biz Dəhləvinin Məcnun surətində də görürük. Nizamidə olduğu kimi, Dəhləvinin də Məcnunu öz eşqində sadiq və dönməzdir, fədakar və iradəlidir. Dəhləvinin məsnəvisində Məkkə ziyarətinin ixtisara düşməsinin səbəb və sirrini indi dəqiq təyin etmək çətindir, lakin ehtimal etmək olar ki, bu, müəllifin bəlkə də sadəcə olaraq orijinallıq göstərmək meylindən irəli gəlmişdir.

Nizaminin poemasındakı Məcnun əsərin əvvəlindən axırına qədər həmişə cəfakeş, əzab-əziyyət içində boğulan, lakin bu əzab-əziyyətdən həzz alan, eşqinə sadiq və cananın vüsalı ümidi ilə yaşayan bir surətdir. Daha səbatlı, daha iradəli, sevgilisinə xəyanətdən büsbütün uzaq olan, hətta cananın etibarsızlıq və vəfasızlığına dözən bir insandır. Bunu biz Məcnunun Leyliyə yazdığı məktubundakı sözlərdən daha aydın görə bilirik:

Əzabın başımdan aşsa da, gülüm,
İncisəm, gözümü qapasın ölüm.
Verdiyin hər zülmə dözsə də bədən,
Canımın, ruhumun qidası sənsən. (Nizami, 1983: 98)

Bu, Dəhləvidə də əslində belədir, lakin Nizamidən fərqli olaraq, Dəhləvi Leylinin "vəfasızlığını", yəni onun İbn Səlama ərə verilməsi səhnəsini Məcnuna tətbiq etmişdir. Belə ki, Nizaminin əsərində Leyli İbn Səlama ərə verilir və bu dəhşətli xəbərdən tam sarsılan Məcnun huşunu itirib yerə yıxılır, ayılandan sonra isə Leyliyə məzəmmətlə dolu məktub yazır və həmin məktubda sevgilisini vəfasızlıqda günahlandırırsa da, özünün həmişə onun məhəbbəti ilə yaşayacağını bildirir. Dəhləvidə isə İbn Səlam əhvalatı və ümumiyyətlə Leylinin ərə verilməsi səhnəsi yoxdur. Bunun əvəzində Məcnunun Nofəlin qızı Xədicəyə evlənməsi səhnəsi əlavə edilmişdir.

Burada qeyd edilməlidir ki, Məcnunu öz arzusuna çatdırmaq üçün Leylinin qəbiləsi ilə müharibə edən qüdrətli cəngavər Nofəl əhvalatı həm Nizamidə, həm də Dəhləvidə vardır. Lakin Nizamidə Nofəl özü dağ və səhralarda şikar edən zaman təsadüfən Məcnunla rastlaşır və onun bəlalı eşq macərasından xəbərdar olandan sonra Leylinin qəbiləsi üzərinə həmləyə keçir. Dəhləvidə isə Nofəldən kömək istəyən Məcnun deyil, onun atasıdır. Elçilik zamanı rədd cavabı alan ata əli hər yerdən üzüldüyü üçün "ərəb şahı" olan qüdrətli Nofələ müraciət edib ondan kömək istəyir və özünə güvənən Nofəl də məsələni döyüşlə də olsa Məcnunun xeyrinə həll edəcəyinə söz verir. Lakin həm Nizamidə, həm də Dəhləvidə Nofəlin işə qarışması Məcnunu arzusuna çatdıra bilmir. Səbəblər isə müxtəlifdir. Nizamidə Nofəl iki dəfə Leylinin qəbiləsi ilə vuruşur, birinci dəfə məğlub olduğu üçün düşmənlə sülh bağlayır və bu sülhdən daha güclü qoşun toplamaq məqsədiə istifadə edib, ikinci dəfə döyüşə başlayır. Bu dəfə Nofəl üstün gəlir və məğlub olacağını görən Leylinin atası Nofələ yalvarıb deyir: "Biz məğlub olmuşuq. Əgər sən mənim qızımı tələb edib özünün ən alçaq quluna da versən, razı olaram. Əgər sən onu öldürmək də istəsən, itaətindən çıxmaram. Lakin div nəslindən olan bu adama qız verməræm, çünki o, dəlidir və zəncirlənməlidir. Ona qız vermək – özünü həmişəlik rüsvay etmək deməkdir. Mən qızımı öldürüb cəsədini itlərin qabağına ataram, amma dəliyə verməræm". Bu sözlər Nofəli fikrindən döndərir və o da dövrün ictimai prinsipləri çərçivəsindən kənara çıxa bilməyib, atanın dəlilləri ilə razılaşır.

Dəhləvidə isə Nofəlin döyüşü təkrar olunmur, çünki elə birinci müharibədə məğlubiyyət qarşısında qalan qəbilə başçıları qərara gəlirlər ki, "evi dağıtmaqdansa təkcə qapını sındırmaq daha yaxşıdır" deyə Leylini Məcnuna verməkdənsə öldürməyi lazım bilirlər. Leylinin ölüm təhlükəsi qarşısında qaldığından xəbər tutan Məcnun dərhal Nofələ yalvarıb döyüşü dayandırmağı tələb edir.

Görünür ki, Nizaminin "dəliyə qız verməyə razılaşmamaq" variantı Dəhləvini qane etməmiş və öz variantını daha münasib bilmişdir. Lakin bu süjet xəttinin özündə müəyyən məna və məzmun gizlənmişdir. Nofəlin öz vədinə əməl etməkdən çəkinməsi cəhdini izahla yanaşı Məcnunun həmin döyüş səhnələrində rəftar və hərəkətlərinə bəraət qazandırmaq niyyəti də ön plana çəkilmişdir. Nizamidə Məcnun və Nofəl əhvalatı daha real və inandırıcı şəkildə qələmə alınmışdır, çünki burada Nofəl kiminsə xahişi ilə yox, bilavasitə Məcnunla yaxın ünsiyyətdən və onun eşqini bir nəcib cəngavər kimi dərk etdikdən sonra insanlardan qaçan, yalnız dağ və səhralarda rahatlıq tapan bu məzlum aşiqə kömək etmək qərarına gəlir. Nizaminin yazdığı kimi, ilk tanışlıqdan sonra Məcnunla Nofəl iki ay birlikdə vaxt keçirir, bu müddət ərzində Nofəl yeni tanışının məhəbbət mövzusunda çoxlu şeirlərinə qulaq asır və nəhayət, adicə bir cəngavər kimi deyil, vəfalı və həmfikir bir dost kimi Məcnuna kömək əlini uzadır. Nofəlin vədinə isə əvvəlcə inanmaq istəməyən Məcnunun da özünə xilaskar hesab etdiyi adama etibar və inamı tədricən artır, sevgilisinin vüsalına çatmaq ümidi hətta onu bir müddət dəlilikdən də çəkindirir. Maraqlıdır ki, Nizamidə Məcnun Nofəli iki dəfə məzəmmət edir, birinci dəfə verdiyi vədinə əməl etməkdə tələsməməkdə, ikinci dəfə isə məğlubiyyətini hiss etdiyi üçün Leylinin atasına sülh təklif edib müharibəni dayandırdıqdan sonra.

Dəhləvidə isə "Ərəb şahı" kimi oxucuya təqdim edilən Nofəl Məcnunun əhvali-ruhiyyəsindən, demək olar ki, xəbərsizdir, çünki onunla heç bir ünsiyyətdə olmamışdır. Və yalnız çarəsiz atanın xahiş və yalvarışlarından sonra, həm də öz ad-sanını daha da şərəfləndirmək niyyəti ilə qarışır. Nizamidə Leylinin atasının gətirdiyi dəlillərlə hesablaşan və öz vədindən əl çəkən Nofəl Məcnunla dostluğunu kəsmək fikrində deyildir, lakin bu dəfə o, silah və güclə deyil, nəsihət və tövsiyə ilə onun dadına çatmaq istəyir. Məcnun isə Nofəlin gözəl qızlardan birinə evlənmək təklifini qətiyyətlə və ikrahla rədd

edir. Dəhləvidə isə Məcnun "atasının iradəsinə zidd çıxa bilmədiyi" üçün Nofəlin Xədicə adlı gözəl qızına evlənmək təklifini qəbul edir.

Dəhləvinin poemasında Məcnunun Xədicəylə evlənməyə razılıq verməsini bəlkə də onun ani iradəsizliyi kimi qəbul etmək olar, lakin bu, heç də Məcnunun Leyliyə bəslədiyi məhəbbətin sönməsi əlaməti deyil. Bu mənada Məcnunun toy-büsatı zamanı dalğın əhvali-ruhiyyəsi, pərişanlığı və daima Leyli haqqında düşünməsi müəllif tərəfindən məharətlə təsvir olunmuşdur:

| | |
|---|---|
| هر کس بهوس نگاه میکرد | مجنون میدید واه میکرد |
| هر کس صفت جمال میگفت | مجنون سخن ارز خیال میگفت |
| هر کس گهری خریده میریخت | مجنون ز سر شک دیده میریخت |
| هر کس ز طرب بکار خود بود | مجنون بهوای یار خود بود |
| هر کس شمعی سر ز بر داشت | مجنون همه سوز در جگر داشت |

*Hər kəs maraqla tamaşa edirdi,*
*Məcnun isə baxır və ah çəkirdi.*
*Hər kəs gəlinin gözəlliyindən danışırdı,*
*Məcnun isə xəyala dalmışdı.*
*Hər kəs aldığı gövhəri səpirdi,*
*Məcnun isə gözlərindən yaş tökürdü.*
*Hər kəs özü üçün şadlıq edirdi,*
*Məcnun isə öz yarının fikrini çəkirdi.*
*Hər kəs əlində yanan çıraq gəzdirirdi,*
*Məcnunun bütün yanğını isə ciyərində idi* (Dəhləvi, 1964: 139).

Lakin Dəhləvinin təsvir etdiyi kimi nə təmtəraqlı toy-büsatı, nə də Xədicənin misilsiz gözəlliyi Leylini Məcnuna unutdura bilir və zifaf vaxtına az qalmış Məcnun öz eşqinə xəyanət etdiyini anlayıb toydan qaçır və yenidən səhralara üz qoyur.

Həm Nizamidə, həm də Dəhləvidə Məcnunun əsl bəlalı günləri Nofələ bağlanan ümidlərin puça çıxmasından sonra başlayır. Elə buradan da Məcnunun bədbinləşməsi və öz arzusuna çatmağın qeyri-mümkünlüyünü dərk etməsi üçün zəmin yaranır. Əsərlərdə təsvir edilən hadisələr silsiləsində hər iki müəllif təkcə Məcnunun öz eşqinə sadiqliyini deyil, həmçinin ümumiyyətlə insanın mənəvi cəhətdən kamilləşməsində, nəciblik, xeyirxahlıq, səxavət, qayğıkeşlik, başqasının halına yanmaq və s. bu kimi yüksək bəşəri sifətlərin aşılanmasında məhəbbətin oynadığı rolu ön plana çəkir. Nizamidə Nofəldən ayrılan və dağlardakı məskəninə qayıdan Məcnun əvvəlcə öz atını ovçuya verib ahuları, sonra da silahlarını bağışlayıb maralı ölümdən xilas edir. Daha sonra isə yaşıl çəmənlikdə bulaq üstünə qonmuş qara qarğa ilə həmsöhbət olub ona suallar verir. Əvvəlki iki epizodun heç birinə biz Dəhləvidə rast gəlmirik. Görünür ki, Dəhləvi yuxarıda göstərilən iki epizodun insan mənəviyyatını yüksəldən cəhətinə o qədər də əhəmiyyət verməmiş (halbuki bu cəhət Nizami humanizminin əsas amillərindən biridir) və öz ustadının məsnəvisindəki üç epizod əvəzinə Məcnunun yalnız bülbüllə söhbəti səhnəsini vermişdir ki, bu da Nizamidə Məcnunun qara qarğa ilə söhbətinin başqa variantda təkrarıdır. Eşqdə sədaqət və fədakarlıq rəmzi olan bülbülün Məcnunla söhbəti qarğaya nisbətən müəyyən mənada daha münasib görünsə də, məqsədlər bambaşqadır. Belə ki, Dəhləvidə eşq mübtəlası olan iki həmdərd görüşür və söhbətin axırında Məcnun bülbüldən xahiş edir ki, Leylini onun pərişan halından xəbərdar etsin. Nizamidə də ahu və maral müəyyən mənada həm Məcnun, həm də Leyli kimi qandallanmışlar. Lakin Dəhləvidən fərqli olaraq, Nizaminin

Məcnunu bülbüldən kömək uman qəhrəman deyil, əksinə, ahu və maralı əsarətdən qurtaran xilaskardır. Doğrudur, şairin qeyd etdiyi kimi, ahunun gözləri Leylinin gözlərini xatırladır, sanki Məcnun ahunu deyil, Leylinin özünü əsarətdən xilas edir, lakin bu səhnə, hər şeydən əvvəl, Məcnunun yüksək alicənablıq və insanpərvərliyini göstərən gözəl bədii lövhədir.

Beləliklə, Nizamidə Məcnun kömək edən, Dəhləvidə isə başqasından kömək gözləyən surətdir. Yeri gəlmişkən qeyd edək ki, hər iki müəllifin əsərində Məcnunun dağ və səhra heyvanları ilə dostluq ünsiyyətindən, hətta vəhşi heyvanların əhatəsində yaşamasından söhbət gedir. Lakin Nizami Məcnunla heyvanlar arasında bu dostluq ünsiyyətini yaradan amillərdən geniş bəhs acır. Bu amillərin başlıcası isə Məcnunun adi dəlillərdə olmayan zəngin mənəviyyatı və ürəkyananlığıdır, xeyirxahlıq və nəcibliyidir. Nizamidə Məcnun nəinki bir sıra heyvanları dardan qurtarır, həm də qohum və dostların onun üçün gətirdikləri ərzaq və xörəkləri əksərən heyvanlara paylayır. Məcnunun səmimilik və qayğıkeşliyi sayəsində hətta yırtıcı heyvanlar belə mülayim heyvanlara toxunmurlar, qurdla ahu, şirlə maral bir-birinə toxunmadan dinclik şəraitində yaşayırlar. Bizcə, Məcnunun ətrafına toplaşan müxtəlif heyvanlar arasındakı dostluq ünsiyyətindən və dinclik şəraitindən bəhs açan Nizami dolayı yolla və məcazi mənada olsa da, öz dünyagörüşünün ən ümdə cəhətinə toxunmuş və burada iki ictimai məna axtarmışdır. Birincisi, şair göstərmək istəmişdir ki, insanlar tərəfindən dərk edilməyən, bəzən dərk edilsə də, namünasib hesab olunan Məcnunun vəziyyəti heyvanlar tərəfindən daha yaxşı başa düşülür. Buna görə də insanlardan qaçan Məcnun cəmiyyətdə deyil, təbiətin qoynunda, heyvanlar arasında özünə sığınacaq tapır. Heyvanlar həm Məcnunun sirdaşları, həm də keşikçiləri olur.

İkincisi, Nizami zəmanəsinin ən böyük ictimai probleminə toxunaraq demək istəmişdir ki, ədalət və bərabərlik, səmimiyyət və mehribanlıq, düzlük və qarşılıqlı inam olan yerdə maddi və mənəvi həyat da yaxşılaşar. Əgər Məcnunun səmimiyyəti və mehribanlığı, qayğıkeşlik və xeyirxahlığı müxtəlif heyvanları dostluq və dinclik şəraitində yaşamağa sövq etmişsə, bəs nə üçün bütün varlıqların əşrəfi olan insanlar arasında bu mümkün olmasın? Bununla da ölməz şair zəmanəsindəki ictimai ədalətsizlik və maddi bərabərsizliyə, zülm və istismara qarşı etiraz səsini qaldırmışdır. Bu məsələ Nizami dünyagörüşünün məhək daşını təşkil edən, "Sirlər xəzinəsi" ilə başlanan və "İskəndərnamə" ilə bitən adil şah problemini bizə xatırladır.

Dəhləvidə də əli hər yerdən üzülən Məcnun heyvanlar arasında məskən salır, lakin Nizamidən fərqli olaraq, Məcnunla heyvanları bir-birinə yaxınlaşdıran amillərdən, demək olar ki, bəhs açılmır və ya bu məsələyə səthi yanaşılır.

Hadisələrin sonrakı gedişində müəlliflərin əsərlərindəki süjet fərqləri daha ciddi şəkildə biri digərindən fərqlənir ki, bu da Məcnun surətinin səciyyəsində əsas rol oynayır. Belə səhnələr içərisində Nizamidə Məcnunun dəli gəzdirən qarı, Dəhləvidə isə Məcnunun it ilə görüşü diqqəti daha çox cəlb edir.

Nizamidə Leylini görmək ümidi ilə Nəcd dağlarını dolaşan Məcnun dalınca zəncirli dəli gəzdirən qarı ilə rastlaşır. Həmin zəncirlinin də əslində dəli deyil, qarının özü kimi dilənçi olduğunu və gündəlik qazanclarını öz aralarında yarı böldüklərini öyrənən Məcnun qarıdan xahiş edir ki, dilənçinin əvəzinə zənciri onun boynuna salsın, bütün qazancı isə özünə götürsün. Qarı razılaşır və zənciri Məcnunun boynuna salıb onu Leylinin çadırına tərəf aparır. Uzaqdan Leylinin ətrini hiss edən kimi Məcnun taqətini itirib yerə yıxılır, tamamilə divanələşir və nəhayət, boynuna salınmış zənciri qırıb yenidən dağlara çəkilir.

Dəhləvidə isə bu epizod əvəzinə Məcnunun qəbilə iti ilə görüş və rəftarı səhnəsi verilmişdir. Şair təsvir edir ki, isti yay günlərinin birində Məcnun birdən öz qəbiləsinə

getmək qərarına gəlir. Yolda qoca qəbilə iti ilə rastlaşır, onu qucaqlayır və sadiq dost kimi iti tərifləməyə başlayır. Məcnunun halına yanan adamlar onun başına toplaşır və deyirlər ki, insan dilini başa düşməyən itə bu qədər nəvaziş göstərməyin və tərif yağdırmağın nə mənası var? Məcnun isə cavab verib deyir ki, o, özünü də Leylinin iti hesab edir, onun qucaqladığı bu it isə Leylinin qapısının önündən keçmişdir. Demək, Məcnun Leylinin ətrini bu itdən alır, bu iti özündən xoşbəxt hesab edir, çünki it istədiyi vaxt Leylinin evinə və qıza tamaşa edə bilər.

Şübhəsiz ki, Dəhləvi bu epizodla Məcnunun eşqinin əbədiliyini, qırılmaz məhəbbət telləri ilə Leyliyə bağlı olduğunu göstərmək istəmişdir. Süjet baxımından biri digərindən ciddi şəkildə fərqlənən bu iki epizodu müqayisə etsək, bizcə, üstünlüyü yenə Nizamiyə vermək lazım gəlir. Çünki Nizamidə sevgilisini görmək xatirinə həqiqi dəli kimi özünün zəncirlənməsinə razılıq verən Məcnunun halına oxucu ürəkdən acıyır, onun çarəsizlikdən insan ləyaqətini alçaldan bu əməlinə istər-istəməz bəraət qazandırır. Hətta oxucu Məcnunun bu hərəkətini fədakarlıq və sədaqətin bir əlaməti kimi qarşılayır. Dəhləvidə isə Məcnunun özünü “Leylinin iti” adlandırması istənilən yüksək mənəvi təsir bağışlamır, əksinə, Məcnunun həqiqi aşiqlik ləyaqətinə müəyyən mənada xələl gətirir. Bundan əlavə, Nizamidə Məcnunun əl-qolu onsuz da mövcud ictimai qayda-qanunlar tərəfindən zəncirlənmişdir, bu qayda-qanunlar çərçivəsindən xilas olmaq üçün o, həmin zəncirləri qırmalıdır və Məcnun həqiqətən də bu zəncirləri qırmaqla öz zəmanəsi əleyhinə qorxmaz bir üsyankar kimi çıxış edir. Dəhləvidə Məcnunun itlə görüş səhnəsi isə bu dərin ictimai məzmundan xalidir.

Hər iki müəllifin əsərində uzun sürən ayrılıqdan sonra Məcnunla Leylinin üzbəüz görüş səhnəsini təsvir edən ayrıca hissələr vardır. Hər iki müəllifdə də görüşün təşəbbüskarı Leylidir. Nizamidə zorla verildiyi ər evində günlərini dörd divar arasında keçirən Leyli təsadüfən gecə qaranlığında, yola baxarkən Məcnunun dayısı Səlim Amirinin oradan keçdiyini görüb, onunla söhbətə başlayır. Məcnunun miskin halından xəbərdar olandan sonra isə qulağındakı sırğasını çıxarıb Səlim Amiriyə verir və Məcnunu təyin etdiyi görüş yerinə gətirməsini ondan xahiş edir. Leylinin sifarişini alan Məcnun sevgilisi ilə olacaq qarşıdakı görüşdən vəcdə gəlir və dərhal göstərilən xurma meşəliyinə yollanır. Heyvanlar onu müşayiət edir. Nəhayət, sevgililər görüşürlər, lakin bu görüşdə Leyli on addım Məcnundan kənarda oturur, çünki ərli qadın həyası ona sevgilisinin lap yanında oturmaq hüququ vermir. Sevgililərin bu həsrətli görüşü yalnız Məcnunun yeni şeirlərinin oxunması ilə tamamlanır.

Dəhləvidə isə Leyli heç kəsin köməyinə müraciət etmədən, yuxuda gördüyü Məcnunun halına tab gətirməyib, təkbaşına dəvə üstündə səhraya yola düşür, uzun axtarışdan sonra vəhşi heyvanlar əhatəsində yuxuya dalmış Məcnunu tapır. Sevgililərin bu nagahani görüşünü şair çox böyük məharətlə və incə bədii boyalarla təsvir edir. Nizamidən fərqli olaraq, Dəhləvidə sevgililər bir-birinə lap yaxın oturub, qucaqlaşıb öpüşür, həyəcandan əvvəlcə huşlarını itirir, huşa gəldikdən sonra zifaf gecəsini qaranlıq, kimsəsiz səhrada keçirirlər. Beləliklə, Dəhləvidə Məcnun Leylinin vüsalına çatmış olur.

Göründüyü kimi, bu görüş səhnəsinin təsvirində müəlliflər eyni çür hərəkət etmirlər. Onu da qeyd edək ki, Dəhləvinin Leylisi nisbətən daha sərbəstdir, çünki o, ərli qadın deyildir və Məcnunun görüşünə gəlməklə və özünü yarına təslim etməklə heç kəsin namusuna xəyanət etməmiş, yalnız öz bakirəlik ismətini ləkələmişdir. Dəhləvinin nəzərində Leylinin bu hərəkəti fədakarlıq və qorxmazlıq nişanəsidir. Leylinin bu rəşadətli fədakarlığına oxucuların nə dərəcədə bəraət qazandırıb-qazandırmayacağı məsələsinə toxunmadan (çünki zövqlər və həzlər müxtəlifdir) yalnız bu cəhəti əlavə edirik ki, görünür, Dəhləvi öz qəhrəmanlarını bu dünyadan kamsız aparmaq istəməmiş və bunun-

la da oxucuların məhəbbət faciəsinin təsvirindən alacaqları ruhi iztirab və işgəncəni yüngülləşdirmək meylinə düşmüşdür.

Nizami də ayrılıqdan ciyərləri qana dönən qəhrəmanlarını biri digərinin vüsalına çatdıra bilərdi, lakin ölməz sənətkarın həm Leylisi, həm də Məcnunu ömürlərinin sonuna qədər ismətli qalır, üzbəüz görüş zamanı bir-birindən xeyli aralı otururlar. Təkcə ona görə yox ki, Leyli başqa kişinin arvadıdır və ərli qadının namusunu ləkələmək namərd işidir, həm də və əsasən ona görə ki, Nizaminin Məcnunu, hər şeydən əvvəl, öz saf və müqəddəs məhəbbətinə xəyanət etmək fikrindən çox-çox uzaqdır. Nizaminin Məcnunu da Dəhləvi Məcnunu kimi hərəkət etsəydi və heyvani şəhvətini söndürmək xatirinə Leylinin bakirəliyini pozsaydı, o, həm müəllifin, həm də oxucuların nəzərində alçalar və pak məhəbbəti nüfuzdan düşərdi.

Eyni zamanda Dəhləviyə də haqq qazandırmaq lazımdır ki, səhrada keçirilən zifaf gecəsindən sonra Leyli və Məcnun arasındakı məhəbbət nəinki sönmür və azalmır, əksinə, daha da şiddətlənir və alovlanır.

Süjet fərqləri içərisində Nizaminin əsərindəki Məcnunla Səlim Amiri və Zeyd əhvalatları, Məcnunun Səlim Bağdadi ilə görüş səhnəsi Dəhləvidə yoxdur, bunların əvəzində ümumiyyətlə Məcnunun öz dostları ilə söhbətləri və onların nəsihətlərinə verdiyi cavabları əlavə olunmuşdur.

Hər iki müəllifdə Məcnunun ölüm səhnəsinin təsviri də bir-birindən seçilir, Nizamidə Leylinin ölüm xəbərini eşidən Məcnun sevgilisinin məzarı üstünə gəlib, qanlı göz yaşları tökür və eşqin ülviliyi haqqında şeirlər oxuyur. Bur müddət o, gah dağlarda dolaşır, gah da saatlarla Leylinin məzarı üstə düşüb qalır, heyvanlar isə onun keşiyini çəkirlər. Nəhayət, son anlarını yaşadığını hiss edən Məcnun yenə Leylinin qəbri üstünə gəlib “xəstə qarışqa kimi” məzarın üstünə yıxılır, yanıqlı şeirlər oxuyur və axırda qəbir daşını qucaqlayıb canını tapşırır. Şairin təsvir etdiyi Məcnunun cəsədi bir ay, bəlkə də bir il Leylinin məzarı üstündə qalır, çünki keşikdə dayanan vəhşi heyvanların qorxusundan heç kəs qəbrə yaxın düşə bilmir. Yalnız heyvanlar dağılışandan sonra qəbilə əhli və qohumları Məcnunu Leylinin məzarının yanında dəfn edirlər.

Dəhləvidə isə Leylinin ölümündən xəbər tutan Məcnun özünü dəfn mərasiminə çatdırır, dəlicəsinə hərəkət edərək, gülə-gülə, tullana-tullana, qəzəl oxuya-oxuya cənazənin qabağına düşür, nəhayət, vəfalı sevgilisi ilə yanaşı getdiyinə sevinir. Cəsədi qəbrə qoyan zaman isə Məcnun da özünü Leyli üçün qazılmış qəbrə atıb, ağ kəfənə bükülmüş yarını möhkəm qucaqlayır. Matəmə batmış adamlar qəzəblə Məcnunu ölmüş qızdan dartıb ayırmaq istəyirlər, lakin Məcnunun artıq öldüyünü görüb insafa gəlir və onu da Leyli ilə birlikdə dəfn edirlər.

Bu müqayisədən göründüyü kimi, Nizamidə Məcnun dərhal deyil, xeyli müddət Leylinin matəmində çəkdiyi olmazın cismani və ruhi əzablardan sonra, Dəhləvidə isə elə dəfn mərasimi zamanı vəfat edir. Ehtimal ki, böyük Nizami bu faciəvi məhəbbət dastanını nəzmə çəkərkən xalq arasında geniş yayılmış həm rəsmi, həm də şifahi məxəz və mənbələrə daha çox riayət etməyə çalışmış, lakin eyni zamanda həmin məxəzləri öz dünyabaxışı süzgəcindən keçirmiş və özünün pak məhəbbətə olan vurğunluğunu ifadə etmişdir. Dəhləvi isə öz əsərini məlum məxəzlərdən daha çox Nizami məsnəvisinə istinad etdiyindən daha geniş sərbəstlik tapmış, həm süjet xəttində, həm surətlərin səciyyəsində, həm də əsərin ideya istiqamətində istədiyi kimi hərəkət etmək imkanı qazanmışdır. Dəhləvinin Məcnun surəti sevgilisinin vəfatından sonra bir gün də olsun Leylisiz həyat sürməyi mənasız hesab etmiş və bu dəhşətli dərdə dözə bilmədiyi üçün birdəfəlik həyatla vidalaşmışdır. Bu baxımdan Nizaminin Məcnun surəti daha dözümlü və daha əzimlidir, çünki o, nəinki təkcə Leylinin sağlığında, həm də onun ölümündən

sonra da vəfalı və sadiq aşiq olaraq yaşayır və nəhayət, yarının məzarı üstündə can verir. Başqa sözlə, Dəhləvinin Məcnunu özünü sonra çəkəcəyi ağır ruhi və cismani əzablardan birdəfəlik xilas edir, Nizaminin Məcnunu isə son nəfəsinə qədər əzabkeş və vəfadar aşiq surəti kimi oxucuların rəğbətini qazanır.

Hər iki müəllifdə Məcnun yalnız vəfalı və sadiq aşiq deyil, həm də istedadlı şairdir. Nizamidə isə üstəlik dünya elmlərindən mükəmməl xəbərdar olan alimdir. Dəhləvidən fərqli olaraq, Nizami öz əsərində Məcnunun xüsusilə şairlik ləyaqətinə daha geniş yer vermişdir. Ölməz sənətkar aydıncasına göstərir ki, yanında dəftər və qələm gəzdirmədiyi üçün Məcnun öz şeirlərini yazmırmış, bu şeirlər başqaları tərəfindən əzbərlənir, yazılır və yayılırmış. Elə buna görə də Nizamidə Məcnun kimi eşq yanğısına mübtəla olmuş şeir həvəskarı Səlim Bağdadinin uzun müddət Məcnunla birlikdə dağ və səhralarda vaxt keçirməsi haqqındakı epizodları təsadüfi hesab etmək olmaz. Nizami xüsusilə qeyd edir ki, eşq təkcə həyatı mənalandıran və insanı sevdirən nemət deyil, həm də insan qəlbini riqqətə gətirən və şairlik ilhamı bəxş edən qüdrətli amildir. Məsələnin bu cəhətinə Y.E.Bertels də ciddi əhəmiyyət verərək yazmışdı:

Очевидно, Низами тоже считал важным подчеркнуть, что его «любовное безумие» не просто лишило Кайса рассудка, а дало толчок к полному развитию его поэтического гения. (Bertels, 1960: 273)

*Görünür, Nizami "eşq çılğınlığı"nın Qeysi nəinki dəli etdiyini, həm də onun qəhrəmanının hərtərəfli inkişafına təkan verdiyini vurğulamağı vacib hesab edirdi.*

Yuxarıda göstərilən keyfiyyətlərdən başqa Məcnun surəti hər iki müəllifdə "dəliliyinə" baxmayaraq, həm də tərbiyəli və mərifətli insan, ata-ana qədrini qiymətləndirən övlad, etibarlı dostdur, lakin məqalənin həcmi imkan vermədiyi üçün biz bu keyfiyyətlərdən bəhs açmırıq.

Hər iki şairin əsərindəki Məcnun surətinin müqayisəli təhlilinə yekun vuraraq bir daha qeyd edirik ki, həm Nizaminin, həm də Dəhləvinin eyni mövzuda yazdıqları poemaları, eləcə də Məcnun surəti ədəbiyyat tarixində dərin iz buraxmış, insan nəsillərinin tərbiyələnməsində ləyaqətli rol oynamış və indi də öz qiymətini itirməmişdir.

## QAYNAQLAR:


1. Əlizadə, M.M.(1960). *Azərbaycan ədəbiyyatı tarixi*. I cild. Bakı: Azərb.SSR EA nəşriyyatı.
2. Nizami Gəncəvi. (1983) *Leyli və Məcnun*. Bakı: Yazıçı.
3. Бертельс, Е. (1960) *Низами и Физули*. Москва: Восточная литература
4. امیر خسرو، دهلوی. (1964). *مجنون و لیلی*. مسکو


**Agadadash DADASHOV**

## Majnun image in the creative activity of Nizami and Amir Khosrov Dehlevi


***Summary***

The creative activity of Nizami Ganjavi, who became famous as one of those who decorated the treasury of world literature with rare and precious pearls opened a new literary school in the Eastern world, found the way into the hearts of not only poets and writers, but all readers.

That was the reason the eminent masters of words from different countries considered it a great honor to create imitations to "Khamsa" by Nizami.

One of the poems, which attracted the attention of famous poets and were the subject of dozens of immitations and comments was the poem "Leyli and Majnun" based on real love story.

Amir Khosrov Dahlavi was the first representative of Nizami literary school among the poets of the Near and Middle East.

The aim of this article is to compare the images of Majnun created by both poets based on masnawi (couplets) with the same subject.

It is known that world orientalists, as well as prominent Soviet and Azerbaijani scholars, have made remarkable services in the field of study Nizami's creativity and worldview. They created valuable researches with artistic and scientific analysis of masnawis included in "Khamsa" as well as the poem "Leyli and Majnun. Therefore, in this short article we will not discuss the relevance of the topic, its place in the history of literature the importance of socio-moral problems, the diversity and richness of the image gallery and the reasons Dehlevi touch upon this topic. In the article will be analysed the image of Majnun. It should be noted that diversity of Majnun's image in the poems by Nizami and Dehlawi the description and explanations of the events related to love tragedy, interpretation of high human qualities and etc.was due to the differences in worldview of the poets and sometimes from Dehlevi's tendency to be original.

**Агададаш ДАДАШЕВ**

## Образ Меджнуна в творчестве Низами Гянджеви и Амира Хосрова Дехлеви

### *Резюме*

Все творчество Низами Гянджеви, прославившегося как один из бессмертных творцов, обогативщих сокровищницу мировой литературы своими уникальнейшими произведениями и в первую очередь его «Пятерица» («Хемсе») не только заложила основы новой восточной литературной школы но и проложила путь к сердцу не только поэтов и писателей, но и читателей. Именно поэтому впоследующие столетия известные мастера слова, которые жили и творили в разных странах и на различных языках, считали для себя большой честью писать подражательные стихотворения к «Хемсе» бессмертного мастера слова. Одной из таких поэм, привлекшей внимание выдающихся поэтов, и на основе которой были созданы десятки подражательных произведений, является месневи «Лейли и Меджнун», основанное на реальной истории любви.

В литературе народов Ближнего и Среднего Востока первым продолжателем школы Низами является Амир Хосров Дехлеви.

Основная цель данной статьи – сравнение образов Меджнуна в месневи, написанных поэтами на одинаковую тему. Как известно, востоковеды всего мира, а также видные советские ученые, в том числе, азербайджанские исследователи внесли большой вклад в исследование творчества и мировоззрения Низами, ими были созданы ценные труды о художественном и научном анализе месневи, входящих в состав «Хемсе» и о поэме «Лейли и Меджнун». Поэтому в этой не большой статье мы довольствуемся только лишь анализом образа Меджнуна в произведениях обеих поэтов, не затронув при этом вопроса актуальности сюжета «Лейлы и Меджнун», ее позиции в истории литературы, значимости затронутых в поэме важных общественных и нравственных проблем, разнообразие и богатство галереи образов, а также причины обращения Дехлеви к данной теме и др.

Отметим, что как незначительные так и основательные различия в характеристике образа Меджнуна в поэмах Низами и Дехлеви, при изображении и разъяснении событий, связанных с историей его трагической любви, при создании сцен, соответствующих и не соответствующих сюжетной линии произведения, в комментариях о высоких человеческих качеств и т.д., прежде всего, исходят от определенных различий в мировоззрениях обоих поэтов, а порой просто от склонности Дехлеви быть оригинальным.